

TOVUZ: sosial-iqtisadi göstəricilər ürəkaçandır

Tovuz respublikada hərtərəfli inkişaf tempinə görə ön sıralarda yer tutmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə irimiqyaslı infrastruktur layihələrin həyata keçirilməsi, qeyri-neft sektorunun inkişafı, ərzaq təhlükəsizliyinin təmini, idxaldan asılılığının aradan qaldırılması, xarici bazarlarda rəqabətə davamlı məhsulların istehsalı baxımından apardığı düşünülmüş və məqsədyönlü siyasətdən irəli gələn vəzifələr rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalovun rəhbərliyi ilə müvəffəqiyyətlə həyata keçirilir.

Tovuz əsasən aqrar sahənin yüksək təşəkkül tapdığı rayonlardandır. Rayonda istehsal edilən məhsullar daxili tələbatı ödəməklə yanaşı respublika bazarlarında bolluq yaradır və xarici ölkələrə ixrac edilir. Üzümçülük, tərəvəzçilik, tütünçülük, baramaçılıq, bostançılıq, bağçılıq, taxılçılıq, heyvandarlıq kənd təsərrüfatının mühüm sahələridir. Həmçinin kənd təsərrüfatının emal sahələrindən sayılan şərabçılıq da rayon iqtisadiyyatının əsas sahələrindəndir. Kənd təsərrüfatı və əlaqəli sahələr əsasən özəl subyektlərə məxsusdur ki, özəl sektorun maneəsiz inkişafına da rayonda dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Məhz özəl sektora olan diqqət və qayğının nəticəsidir ki, rayon fermerləri və sahibkarları ölkədəki ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayırlar. Rayonda iri kənd təsərrüfatı subyektləri fəaliyyət göstərir ki, bunlar da əhali üçün iş yerləri deməkdir.

2016-cı ildə Tovuz rayonunda 8197 hektar sahədə kartof əkilmişdir. Kartof rayonda bitkiçiliyin əsasını təşkil edir. Əkilən sahələrdən 178605 ton məhsul əldə olunmuşdur. Məhsulun satışından 83128000 manat gəlir əldə edilmişdir. Kartof əkinindən hər ailə 2414 manat gəlir əldə etmişdir. Aqrar sahədə gəlirli sahə sayılan üzümçülük inkişaf edir. Rayonda 684 hektar üzüm bağı mövcuddur. Bu bağların 548 hektarından 9870 ton məhsul yığılmışdır. İl ərzində üzüm bağlarından 6909000 manat gəlir əldə olunmuşdur. Üzüm bağları əsasən rayonun Aşağı Quşçu kəndində çoxluq təşkil edir. Belə ki, Aşağı Quşçu kəndindən 309 hektar sahədən 3868000 manatlıq məhsul satılmış və bu sahədə çalışan hər bir aileyə bir hektar üzüm bağından 15472 manat gəlir əldə olunmuşdur. 2016-cı ildə "Naiqin-Ko" Baltiya MMC tərəfindən xarici bazara 300 dekalitir konyak, 700 dekalitr isə şərab çıxarılmışdır. Taxılçılıq sahəsində də yüksək göstəricilər əldə olunmuşdur. 11554 hektar sahədə taxıl əkilmiş, 39587 ton məhsul götürülmüşdür. Əldə olunan məhsulun orta satış qiyməti 0,28 manat olmaqla, il ərzində 11084000 manatlıq məhsul istehsal olunmuşdur. Hazırda 24060 hektar taxıl səpilmişdir ki, bu da keçən ildəkindən 2,4 dəfə çoxdur. Mütəxəssislər bol məhsul əldə olunacağını proqnozlaşdırırlar. Gəlirli sahə sayılan şəkər çuğunduru keçən il ilk dəfə olaraq 110 hektar sahədə əkilmişdir. Həmin sahədən 1080 ton məhsul götürülmüş, əldə olunan məhsul şəkər zavoduna satılaraq 67000 manat gəlir əldə olunmuşdur. Qeyd etmək lazımdır ki, şəkər çuğunduru ilk dəfə əkildiyindən, əkin sahəsi və məhsuldarlığı az olmuşdur. Cari ildə şəkər çuğundurunun əkin sahəsinin 2000 hektara çatdırılması, bununla da yüksək məhsuldarlığın əldə olunması nəzərdə tutulmuşdur.

Ölkə Prezidenti İlham Əliyevin tapşırığına əsasən Azərbaycanda ənənəvi sahə sayılan baramaçılıq uzun müddətdən sonra keçən il respublikanın bir çox yerində olduğu kimi Tovuz rayonunda da inkişaf etməyə başlamışdır. Ötən il 1560 kiloqram barama istehsal olunaraq satılmışdır. Baramaçılığın daha da inkişaf etdirilməsi üçün rayon ərazisində 10000 ədəd çəkil əkmələri əkilmişdir. Baramaların saxlanması üçün yerlər artıq hazır vəziyyətə gətirilmişdir. Tovuzun əlverişli iqlim şəraiti tərəvəzçiliyin inkişafına da stimul verir. Rayonda 1660 hektar sahədə tərəvəz əkilərək həmin sahələrdən 37014 ton məhsul toplanmışdır. Açıq sahədə aparılan əkindən başqa istixanalarda da tərəvəz məhsulları istehsal olunur. Rayonda 30,5 hektar istixanadan 1535 ton rəqabətə davamlı məhsul əldə olunaraq ölkə bazarları ilə yanaşı əsasən xarici ölkələrə ixrac olunmuşdur. Bu sahədən əldə olunan gəlir il ərzində 1228000 manat olmuşdur. Tərəvəzçiliyin əsas sahələrindən biri olan yerkökü bitkisinin əkini də geniş yayılmışdır. Yerkökü əsasən rayonun Hunanlar kəndində əkilir. 2016-cı ildə 8600 ton yerkökü istehsal olunmuş, bu sahə ilə məşğul olan hər bir aileyə 6490 manat gəlir gətirmişdir. Hazırda yerkökü bitkisinin polietilen örtüklər altında sahələrdə əkini davam etdirilir. Ümumilikdə Tovuz rayonunda ötən il tərəvəzçilikdə 14076000 manatlıq məhsul istehsal olunmuşdur. İqtisadiyyatda qeyri-neft sektorunun inkişafında tütünçülük də gəlirli sahələrdən sayılır.

Keçən il Tovuz rayonunda 20 hektar sahədə tütün əkilmiş, 3140 kiloqram məhsul əldə olunaraq satılmışdır. Məlumdur ki, tütün əsas ixracyönümlü məhsul sayılır. Bu baxımdan 2017-ci ildə tütün sahələrinin xeyli genişləndirilməsi və məhsuldarlığın artırılması nəzərdə tutulmuşdur. Rayonda bağçılığa da xüsusi diqqət yetirilir. Hazırda 1185 hektar sahədə bağ vardır. 2016-cı ildə Tovuz rayonunda 2500 ton xurma, 72 ton gilas, 70 ton şaftalı, 40 ton ərik məhsulu xarici ölkələrə ixrac olunmuşdur. Cari ildən bağçılığın sahəsinin genişləndirilməsi nəzərdə tutulur. Ümumilikdə 932 hektar məhsul verən bağlardan 15940 ton məhsul götürülmüş, respublikadaxili və xarici bazarlarda satılaraq 6376000 manat gəlir əldə olunmuşdur ki, bu da ölkəyə valyuta axını deməkdir. Keçən il toxumçuluq təsərrüfatı kimi qeydiyyatdan keçmiş fiziki şəxslər tərəfindən 315 ton yüksək reproduksiyalı toxum yetişdirilərək fermerlərə satılmışdır. Hazırda Ceyrançöl qışlaqlarının ərazisində 12 min hektar sahədə yeni taxılçılıq təsərrüfatı yaradılmışdır. Bu ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasına sanballı töhfə verəcəkdir. Tovuz rayonu coğrafi cəhətdən dağlıq və aran əraziyə malik olduğundan burada heyvandarlığın inkişafı üçün tam münbit şərait mövcuddur. Statistik məlumata görə rayonda 43744 baş iribuynuzlu, 199642 baş qoyun və keçi, 5100 arı ailəsi mövcuddur. Rayonda mal-qaranın cins tərkibinin yaxşılaşması istiqamətində mühüm işlər aparılmışdır. Belə ki, 532 baş inək, camış və düyələrdə süni mayalanma aparılaraq sağlam balalar alınmışdır. Bu sahədən əldə olunan gəlir 48920000 manat olmuşdur ki, hər ailəyə 1420 manat gəlir götürülmüşdür.

Sirr deyil ki, ərzaq təhlükəsizliyinin təmini üçün təkcə məhsulların istehsalı deyil həm də onların lazımi qaydada qablaşdırılması və saxlanılması əsas şərtlərdəndir. Rayonda meyvə-tərəvəz saxlamaq üçün 14 soyuducu anbar fəaliyyət göstərir ki, onların da ümumi tutumu 8560 tondur. Rayonun ixtisaslaşdığı əsas məhsullardan olan kartofun saxlanılması üçünsə 1 ədəd tutumu 3000 ton olan ayrıca kartof anbarı fəaliyyət göstərir. Mövcud olan soyuducu anbarlardan yerli fermerlərin maneəsiz və şəffaf qaydada istifadəsi üçün hər cür şərait yaradılmışdır. Fermerlər məhsullarını bu anbarlarda itkisiz və yüksək keyfiyyətdə saxlayaraq bazarlara realizə edirlər. Bu anbarlarda saxlanan məhsullar yerli bazarlara çıxmaqla bərabər həmçinin xarici ölkələrə də ixrac edilir. Bu il əlavə olaraq yeni 3 min tonluq kartof anbarının tikintisi də planlaşdırılır. Anbarlarda saxlanılan məhsullar rayonda istehsal edilir.

Aqrar sahədə əkinçiliyin yüksək təşəkkül tapması üçün suvarma suyu ilə təminat vacib məsələlərdəndir. Bu baxımdan Tovuz Suvarma Sistemləri İdarəsinin fəaliyyəti ilə maraqlandıq. İdarənin kollektivi suvarılmanın vaxtında aparılması üçün əzmlə çalışırlar. 2016-cı ildə rayon ərazisində 392,5 kilometr lildəntəmizləmə işləri aparılmış, iş aparılan arxlarda 94 ədəd hidrotexniki qurğu, 35 ədəd suölçən quraşdırılmış, 8 ədəd nasos stansiyalarında cari təmir işləri aparılmışdır. Ümumi su tutumu 20 milyon kubmetr olan "Tovuzçay" su anbarının istifadəyə verilməsi rayonda suvarmaya əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin "Şimal-Qərb Kənd İnkişafı" layihəsi çərçivəsində Tovuz rayonunun "Mirab" və "Mülkülü" sudan istifadə birliklərinin ərazisində təmir-bərpa işləri başa çatdırılmışdır. Belə ki, "Mirab" sudan istifadə birliyinin ərazisində 22,3 kilometr beton kanal, 81,4 kilometr torpaq məcra kanalları, 230 ədəd hidrotexniki qurğular, eyni zamanda "Mülkülü" sudan istifadə birliyinin ərazisində 37,3 kilometr beton kanal, 86,3 kilometr uzunluğunda torpaq məcralı kanallar, 411 ədəd hidrotexniki qurğu təmir-bərpa olunmuşdur

Rayonda xidmət sahələri də gündən-günə inkişaf edir. Təhsil, səhiyyə, mədəniyyət, inzibati idarətmə, rabitə, poçt xidməti, kommunal xidmətlər, fitosanitar xidmət və s. xidmət sahələri sosial-iqtisadi inkişafın müasir standartlara uyğun təmin edilməsində müstəsna əhəmiyyətə malikdir.

Rayonda 86 ümumtəhsil, o cümlədən, 66 tam orta, 17 ümumi orta və 3 ibtidai məktəb fəaliyyət göstərir. Tovuz təhsilinə göstərilən diqqət və qayğının nəticəsidir ki, nailiyyətlər ilbəil artır. 2015-2016-cı tədris ilində 1652 məzundan 811 nəfəri ali məktəblərə sənəd vermiş, onlardan 519 nəfəri nüfuzlu ali məktəblərə qəbul olmuşlar. Cəmi 534 nəfər, yəni, 66 faiz ali məktəblərə, 129 nəfəri isə orta-ixtisas məktəblərinə qəbul olmuşlar. Ən yüksək nəticəni Y.Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbinin məzunu Quliyev Elvin Elçin oğlu əldə etmişdir. O, 3-cü ixtisas qrupu üzrə 684 bal toplayaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olmuşdur. Məzunlardan 80 nəfəri 500-dən, 37 nəfəri isə 600-dən yuxarı bal toplamışlar. Tovuzda 5 məktəbdənkənar təhsil müəssisəsi - Uşaq Yaradıcılıq Mərkəzi, Texniki Yaradıcılıq Mərkəzi, Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Şahmat Mərkəzi və Uşaq-Gənclər, İdman Məktəbi fəaliyyət göstərir.

Rayonda əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi günbəgün yüksəlir. Rayonda Mərkəzi Xəstəxanası, Təcili Tibbi Yardım Stansiyası, Diaqnostika və Hemodializ Mərkəzi, 7 kənd xəstəxanası, 1 şəhər xəstəxanası, 26 həkim məntəqəsi, 17 tibb məntəqəsi əhaliyə nümunəvi tibbi xidmət göstərir. Ölkə Prezidentinin əhalinin pulsuz tibbi müayinəyə cəlb olunması ilə bağlı göstərişinə əsasən 2016-cı ilin fevral ayının 15-dən may ayının 15-dək Tovuz rayonunda 72679 nəfər, o cümlədən, 0-18 yaş qrupu olan 13746 nəfər əhali müayinədən keçirilmişdir. Tibbi müayinə zamanı 3851 nəfər ambulator, 72 nəfər isə stasionar müalicəyə cəlb olunmuşdur. 21 nəfərdə müxtəlif xəstəliklər aşkar edildikdən sonra həmin xəstələr müalicə olunmaq üçün Bakı şəhərinə, ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilmişdir. Kampaniya müddətində əvvəlcə cəbhəyanı kəndlər olan Əlibəyli və Ağdam sakinləri tibbi müayinədən keçirilmişlər. Səhiyyə Nazirliyi tərəfindən rayona növbədənkənar verilmiş UAZ markalı Təcii Tibbi Yardım avtomobili səyyari USM aparatı və laborator ləvazimatlarla təmin olunmuşdur. Bu minik vasitəsilə ən ucqar yaşayış məntəqələrinə asanlıqla getmək mümkündür.

Sosial-iqtisadi tərəqqini elektrik enerjisiz təsəvvür etmək mümkün deyil. 2016-cı ildə "Qərb Regional Elektrik Satışı İdarəsi"nin Tovuz Elektrik Şəbəkəsinin istismar sahəsi 10/6/0,4 kV-luq EVX-də köhnə, isatismara yararsız olan 26468 m uzunluğunda naqillər yenisi ilə əvəz edilmişdir. Tam yararsız hala düşmüş ağac dayaqların 429-u yeni metal dayaqlarla əvəz edilmişdir. Yanıb sıradan çıxmış 45 ədəd güc transformatoru təmir olunaraq yerinə quraşdırılmışdır. "Azərişıq" ASC tərəfindən Tovuz şəhərində 5 ədəd, Qovlar şəhərində 5 ədəd, Cəlilli kəndində 1 ədəd, Alakol kəndində 1 ədəd, Düz Qırıqlı kəndində 2 ədəd, Dönük Qırıqlı kəndində 2 ədəd, Aşağı Öysüzlü kəndində 3 ədəd, Qazqulu kəndində 1 ədəd, Aşağı Quşçu kəndində 2 ədəd, Əyyublu kəndində 2 ədəd, ümumilikdə 26 ədəd transformator yarımstansiyası yeni müasir standartlara cavab verən transformatorlarla əvəz olunaraq istifadəyə verilmişdir. 35/10 kV-luq Qandallar y/st-da 1,6 mVa transformator və yağ açarları, 110/35/6 kV-luq Girzan y/st-da, 110/35/6 kV-luq Tovuz y/st-da 5 kV-luq və 35 kV-luq yağ açarları, 110/10 kV-luq Qovlar y/st-da vakuum açarları cari təmir olunaraq istifadəyə verilmişdir. 35 kV-luq Əhmədabad, 35 kV-luq Tovuzçay, 10 kV-luq Şamlıq, 10 kV-luq Böyük Qışlaq və 10 kV-luq Çatax HEVX-də əsaslı təmir aparılmışdır. 2017-ci ildə Tovuz rayonunda 1 ədəd 35/10 kV-luq yarımstansiyanın tikintisi nəzərdə tutulub. 110/10 kV-luq Qovlar, 35/10 kV-luq Əhmədabad yarımstansiyasının və 12 ədəd 10/6 kV-luq HEVX-nin yenidən qurulması, 29 ədəd yeni KTM-lərin quraşdırılması planlaşdırılıb. 2016-cı ildə şəbəkənin yeni inzibati binası istifadəyə verilmişdir.

Rayonun daxili və beynəlxalq əhəmiyyətli yolların üzərində yerləşməsi onun iqtisadi əhəmiyyətini daha da artırmışdır. Logistikanın təmin edilməsi məqsədilə bütün ölkədə olduğu kimi, Tovuz rayonunda da yolların təmiri və yenidən qurulması daim dövlətimizin diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidentinin 19 fevral 2016-cı il tarixli Sərəncamı ilə Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala-Haçaqaya avtomobil yolunun Qovlar-Əyyublu-Alakol istiqamətində 15 kilometirlik hissəsinin tikintisi başa çatdırılmışdır ki, bu da həmin istiqamətlərdə olan sərnişin və yükdaşımaların artımına şərait yaratmışdır. Rayondan beynəlxalq və ölkədaxili istiqamətlərə yük və sərnişin daşınmasında avtomobil yolları ilə yanaşı dəmiryolları da mühüm əhəmiyyət daşıyır.

Sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri və bölgənin turizm potensialını lazımınca dəyərləndirmək üçün rayonda parklar, istirahət mərkəzləri, hotellər yaradılır ki, bu da füsunkar gözəlliyə və ecazkar təbiətə malik olan Tovuzu daha da cazibədar edir. Əsasən isti havalarda Tovuzun dağ bölgələrində insan qələbəliyi hökm sürür. Əminliklə qeyd etmək olar ki, yaxın zamanlarda Tovuz məşhur turizm bölgələrindən birinə çevriləcəkdir. Yüksək iqtisadi inkişafa malik olan rayon daha yüksək hədəflərə çatacaqdır.

Vəli VƏLİYEV,
"Respublika".